# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 221** **Bakı şəhəri, 4 iyun 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət büdcəsinin Ehtiyat Fondunun vəsaitindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" 2003-cü il 2 iyun tarixli 74 nömrəli, "Dövlət büdcəsi gəlirlərinin xarici valyutada daxil olan hissəsinin xarici valyuta ilə ödəniləcək dövlət büdcəsindən maliyyələşdirilən xərclərinin konvertasiya edilmədən xarici valyutada icrası Qaydaları"nın təsdiq edilməsi haqqında" 2007-ci il 23 fevral tarixli 39 nömrəli, "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun vəsaitinin idarə olunması, uçotunun aparılması və istifadəsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2008-ci il 10 aprel tarixli 84 nömrəli və "İşsizlikdən sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatın təqdim olunması Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 29 dekabr tarixli 621 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 24 dekabr tarixli 440-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 2 iyun tarixli 74 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 343; 2005, № 6, maddə 548; 2009, № 11, maddə 936; 2017, № 3, maddə 501, № 10, maddə 1933; 2018, № 3, maddə 579, № 6, maddə 1376) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin Ehtiyat Fondunun vəsaitindən istifadə Qaydaları"nın 6-cı hissəsinin ikinci abzasından "birdəfəlik təyinatlı" sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 198; 2009, № 4, maddə 282; 2019, № 12, maddə 2064) ilə təsdiq edilmiş "Dövlət büdcəsi gəlirlərinin xarici valyutada daxil olan hissəsinin xarici valyuta ilə ödəniləcək dövlət büdcəsindən maliyyələşdirilən xərclərinin konvertasiya edilmədən xarici valyutada icrası Qaydaları"nın 3.8-ci bəndi ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 10 aprel tarixli 84 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 306; 2009, № 11, maddə 936; 2017, № 3, maddə 503, № 7, maddə 1474; 2018, № 8, maddə 1796, № 9, maddə 1938; 2019, № 3, maddələr 546, 568) ilə təsdiq edilmiş "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun vəsaitinin idarə olunması, uçotunun aparılması və istifadəsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1-ci hissədə "Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində yaradılan" sözləri "hüquqi şəxs yaratmadan təsis edilmiş büdcədənkənar dövlət fondunun -" sözləri ilə əvəz edilsin;

3.2. 2.6-cı bəndin birinci cümləsi ləğv edilsin;

3.3. aşağıdakı məzmunda 3.2-2-ci bənd əlavə edilsin:

"3.2-2. Fondun xərclərinin yuxarı həddi onun büdcə ilinin əvvəlinə olan qalığından və il ərzində mədaxil olunacaq vəsaitin cəmindən yuxarı ola bilməz.";

3.4. 5.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.2. Fondun maliyyə əməliyyatları barədə illik hesabatları dövlət büdcəsinin icrası barədə hesabatla birgə təqdim olunur.".

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 621 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2566; 2018, № 6, maddə 1350; 2019, № 7, maddə 1321; 2021, № 3, maddə 279) ilə təsdiq edilmiş "İşsizlikdən sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatın təqdim olunması Qaydası"nın 2.5-ci bəndinə "xərcləri" sözündən sonra "(dövlət büdcəsindən maliyyələşən təşkilatların işsizlikdən sığorta üzrə ödədikləri sığorta haqlarının məbləği çıxılmaqla)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .- 2022.- 6 iyun.- S.2.